# İbtidai siniflərdə folklor materiallarının tədrisinin əhəmiyyəti

**Səadət Əsədova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** seadet.arif@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., dos. İ.M. Məmmədli,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** folklor, şifahi xalq ədəbiyyatı, nağıl, dastan, atalar sözləri, yeni təlim metodu, milli və ümumbəşəri dəyərlər, tərbiyə, estetik zövq, pedaqoji proses, tənqidi təfəkkürün növləri

**Ключевые слова:** фольклор, устная народная литература, сказка, эпос, пословицы, новый метод обучения, национальные и универсальные ценности, воспитание, эстетические удовольствие, педагогический процесс, типы критического мышления

**Key words:** folklore, verbal folk literature, fairy tales, epics, father's words, new teaching methods, national and universal values, education, aesthetic pleasure, pedagogical process, critical thinking

Şagird şəxsiyyətinin formalaşması, onun bilik və bacarıqlarının yaranaraq inkişaf etdirilməsi işində mükəmməl tədris materiallarının əhəmiyyəti böyükdür. Düzgün seçilərək doğru istiqamətdə tədris resursu kimi istifadə edilən nümunələr şəxsiyyətin təfəkkürünün və bacarıqlarının tələb olunan səviyyəyə çatdırılmasının əsas amillərindəndir.

Bu mənada ibtidai siniflərdə şifahi xalq ədəbiyyatı nümunələrinin tədrisinin rolu böyükdür. Nəzərə almaq lazımdır ki, folklorşünasılıq xalq ədəbiyyatı nümunələrinin yazıya alınması, toplanması ilə başlayır. Həmin əsərlərin mənşəyi, yaranması, ideya və bədii xüsusiyyətləri barədə mübahisə, mülahizə və müşahidələr aparılır, nəticədə materiallar sistem halına salınaraq folklorşünaslıq elmini yaradır. Əlavə olaraq qeyd edək ki, "Azərbaycanda şifahi xalq ədəbiyyatının janrlar üzrə sistemli şəkildə öyrənilməsinə, əsasən, 30-cu illərdən – ali məktəblərimizdə müəyyən proqram tələbləri səviyyəsində ilk mühazirələrin yarandığı vaxtdan başlanmışdır" (1,3). Bu elmi-praktiki proses folklorun əhəmiyyətinin ziyalılarımız tərəfindən aydın dərk olunmasının göstəricisi idi.

Şifahi xalq ədəbiyyatı nümunələri xalq düşüncə və təfəkkürünün, təcrübəsinin mükəmməl şəkildə əks olunduğu məcmudur. Burada vətənpərvərlik, əməksevərlik, humanizm, dostluq, qardaşlıq, düşmənlərə qarşı birləşmək, ədalətsizliyə, ictimai zülmə qarşı mübarizə və s. kimi milli və bəşəri ideyalar ifadə edilir, əksini tapır.

Şagird bacarıqlarının formalaşmasında, onun təfəkkürünün inkişafında, onların vətənpərvər, milli və bəşəri ruhda böyüməsində, xeyri şərdən, yaxşını pisdən ayıra bilməsində, milli adət-ənənənin yaşadılmasında, başqa xalqlara hörmət, düşmənlərə nifrət və s. kimi gözəl keyfiyyətlərin formalaşmasında şifahi xalq ədəbiyyatının rolu danılmazdır. Elə bu səbəbdən də şifahi xalq ədəbiyyatının çox böyük pedaqoji əhəmiyyətə malik olması daima pedaqoji araşdırmalarda diqqət mərkəzində olmuşdur. Hələ XIX-XX əsr Azərbaycan maarifçiləri ilk milli şagird-uşaq dərsliklərini yaradarkən xalq ədəbiyyatına müraciət etmişlər. "XX əsrin ortalarında Azərbaycanın kənd və şəhərlərində orta əsr ətaləti hökm sürən mollaxanaların əksinə olaraq yeni tipli ibtidai təhsil ocaqları açılmışdı. Bu məktəblərdə şagirdlərə dünyəvi elmlər haqqında biliklər verməklə yanaşı, yazılı və şifahi xalq ədəbiyyatı nümunələri də

öyrədilirdi. Uşaqların savadlanmasında, mənəvi cəhətdən sağlam yetişməsində XIX əsrin sonu və XX əsrin əvvəllərində çapdan çıxan müntəxəbat, əlifba və qiraət kitablarının böyük rolu olmuşdur" (7,77). Əlbəttə, gətirdiyimiz sitatda razı olmadığımız məsələlər də vardır. Məsələn, orta əsrlər dövründə Azərbaycanın, eləcə də yaxın Şərqin əksər dünya şöhrətli ziyalıları mollaxana və mədrəsə təhsili almışlar. Həmin məktəbləri bütünlüklə geri qalmış mərkəzlər kimi adlandırmaq düzgün yanaşma deyil. Düşünürük ki, yuxarıdakı sitatda verilmiş həmin məqam sovet ideologiyasının təsirinin nəticəsi idi. Amma folklorun tədris proqramlarına daxil edilməsinin əhəmiyyətini əks etdirə bilir. Müəllif sonra qeyd edir ki, "dərsliklərə uşaqların yaş səviyyəsinə, biliyinə uyğun folklor nümunələrinin salınması təsadüfi deyildi. Hər şeydən əvvəl, xatırlamaq lazımdır ki, tərtibçilərin əksəriyyəti zəhmətkeş xalqın içərisindən çıxmışdı. Onlar özləri uşaqlıqda el ağsaqqallarından eşitdikləri nağıl, layla, atalar sözü, tapmaca, yanıltmac və nəğmələrlə tərbiyələnmişdilər. Bu dövrdə işıq üzü görən dərsliklər çoxdur. Burada yalnız səhifələrində uşaq folkloru nümunələrini əks etdirənlərdən söhbət açacağıq. Belələrinə misal olaraq: 1. A.Çernyayevski və S. Vəlibəyovun «Vətən dili» (II hissə, I nəşr, Tiflis, 1888); 2. R.Əfəndiyevin «Uşaq bağçası» (I nəşr, İstanbul, 1898 və IV nəşr, Bakı, 1912), «Bəsürətül-ətfal» (Bakı, 1901); 3. M.Mahmudbəyov və başqalarının «İkinci il» (Bakı, 1908 və 1912-ci il nəşrləri); 4. A.Şaiqin «Uşaq gözlüyü» (Bakı, 1910 və 1919-cu il nəşrləri), «Gülzar» (Bakı 1912); 5. Mirzə Abbas Abbaszadənin «Birinci il tatar əlifbası» (IV nəşr, Bakı, 1913) və 6. A.Əfəndiyevin «Son türk əlifbası»nı (Bakı, 1919) göstərə bilərik" (7,77).

Xalq ədəbiyyatının müxtəlif janrları barədə görkəmli ədəbiyyatşünas alim, ictimai xadim, pedaqoq F.Köçərlinin çox maraqlı və dəyərli nəzəri fikirləri vardı. O, folklorun təlim-tərbiyə üçün əhəmiyyətini ilk plana çəkərək deyirdi ki, "o millət ki, öz tarixini, dolanacağını, vətənini və dillini sevir – bu qisim əsərləri kamal – şövq və diqqətlə cəm edib sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları oxutmaq ilə başlayır"(1,44).

Uzun müddət yeni tipli məktəblərdə tədris materialı-dərslik kimi istifadə edilən folklor nümunələrinin daxil edildiyi "Balalara hədiyyə" dərsliyi F.Köçərliyə folklorşünaslıq və dərslik yaratma işi tariximizdə çox böyük mövqe qazandırmışdır. O, "Balalara hədiyyə olaraq millətimiz yaratdığı nağıl və hekayələrdən, məsəl və tapmacalardan və bir çox dürlü mənzumələrdən bu məcmuəni tərtib qıldım ki, onlar unudulub xatirələrdən çıxmasın" (1, 44-45) fikirləri ilə məqsədini aşkar şəkildə bildirirdi.

Maarifçilərin folklor nümunələrindən istifadə etməsinə səbəb xalq ədəbiyyatının özünün bütün inkişaf mərhələlərində xalqın estetik tərbiyəsinə xidmət etməsi və əsl tərbiyə məktəbi olmasıdır. Buna misal olaraq xalq məsəllərini, atalar sözlərini, tapmacaları, mövsüm və mərasim nəğmələrini, bayatıları, nağılları, dastanları, sanamaları və digər ədəbi növ və janrlarda yaranmış nümunələri göstərə bilərik. "Folklor həm də uşaqların hərtərəfli inkişafına və yaradıcılıq qabiliyyətinin formalaşmasına böyük təsir göstərir. Böyüklərin oxuduqları mahnılarla ovuna-ovuna, nağıllarla sehr, möcüzə aləminə qovuşa-qovuşa, tapmacalarla düşünə-düşünə onlar yaratmaq, söz demək həvəsinə düşürlər" (7, 8).

Müasir təhsilin və proqramlarının qarşısında əsas həyati bacarıqlara malik olan şagird-vətəndaş yetişdirmək, onda milli və bəşəri dəyərlər formalaşdırmaq, təfəkkürünün cəmiyyət həyatına, ömürboyu təhsilə imkan verəcək səviyyədə inkişaf etdirməkdir.

Bildiyimiz kimi 2008-ci ildən etibarən ölkəmizin bütün orta ümumtəhsil məktəblərində dərslər yeni qaydada, kurikulum proqramına uyğun olaraq aparılır. Dərslərin yeni qaydada keçirilməsi folklorun ibtidai siniflərdə tədrisini daha da genişləndirmək üçün əlverişli imkanlar yaratmışdır. Hazırda orta ümumtəhsil məktəblərin ibtidai siniflərinin "Azərbaycan

dili" dərsliklərində çoxlu sayda folklor nümunələri, şifahi xalq ədəbiyyatına aid məlumatlar verilmişdir. Misal olaraq ümumtəhsil məktəblərinin 1-ci sinif "Azərbaycan dili" dərsliyində təqdim edilmiş "Novruz bayramı" mətnini göstərə bilərik. Həmin mətn Novruz bayramı haqqında şagirdə informasiya verir. Bildiyimiz kimi Novruz bayramı çox böyük mənəvi gücə malik olub xalqımızın qədim adət-ənənələrini, şagirdlər üçün vacib olan bir çox məqamları özündə birləşdirir. İbtidai sinif müəllimi bu mətndən istifadə etməklə, yeni dərs proqramına uyğun olaraq balaca fidanlarımıza fəsillər və onların bir-birini izləməsi, fərqli və oxşar cəhətlərini müəyyən etməyi, torpağın necə canlanması, çılpaqlanmış ağacların tumurcuqlayaraq çiçəklənməsi, quşların köç etməsi haqqında məlumat verərək onların ətraf aləm haqqında bilgilərini daha da genişləndirə, vətənə, ölkəyə, dünyaya məhəbbət, ənənələrə hörmət, sevgi hissini tərbiyə edə bilər. Mətndə "çərşənbə axşamı" ifadəsi də öz əksini tapıb. Bununla da şagirdlər müəllimin köməyi ilə həftənin günləri ilə daha da yaxından tanış olur və onları mənimsəyərək öyrənir. Kosa və keçəlin məzəli zarafatları, novruz tonqalının qalanması, yumurta döyüşdürülməsi uşaqların marağına səbəb olaraq onları əyləndirməklə yanaşı, həm də qədim, milli adət-ənənələrimizlə yaxından tanış edir. Bundan başqa, müəllim uşaqlara papaq atma adətindən danışaraq onlarda maddi mülkiyyətlərini lazım olan kəmiyyətdə paylaşmaq dəyəri kimi gözəl əxlaqi keyfiyyətləri formalaşdıra bilər.

Yeni dərs proqramına uyğun olaraq müəllim şagirdləri bu mövzunu kəşf edərək, sevərək, tədqiqatlar apararaq mənimsəmələri üçün tədqiqat aparma-evdə böyüklərlə söhbətlər edərək mövzunu mənimsəmə tapşırığını verə, uşaqlara bayramın atributları sayılan Kosa, Keçəl, Bahar qızı, səməni, şəkərbura, paxlava, qoğal və s. kimi rəmzləri, onların xarakterini açmaq üçün rollar da verə bilər. Uşaqlar bu obrazları canlandırmaqla onlarla daha yaxından tanış olar və onları yaddaşlarına həkk edərlər.

Göründüyü kimi, özündə bir çox folklor nümunəsinin motivlərini daşıyan bu kiçik mətndən istifadə etməklə şagirdlərə nə qədər vacib bilgilər, məlumatlar vermiş oluruq. "Vətənə, torpağa məhəbbət hissinin formalaşmasında folklor nümunələrinin imkanları genişdir. Xalqın ən şirin arzu və istəklərini bildirən, onun daim yaddaşında yaşayan nümunələr dildən-dilə, nəsildən-nəslə keçir. Folklor nümunələri içərisində, xüsusilə oxşamalar, bayatılar, laylalar, nağıllar, dastanlar, atalar sözləri insanları haqqa, ədalətə səsləmiş, üstündə yaşadığı müqəddəs torpağa sədaqətli olmağa çağırmışdır" (4,73).

Şagirdlərin kiçik yaşlarından şəxsiyyət kimi formalaşması üçün ibtidai siniflərdə şifahi xalq ədəbiyyatı nümunələrinin tədrisi çox zəruridir. Bunların içində ən maraqlı janrlardan biri nağıllardır. Bütün nağılları uşaqlar maraqla dinləyir, yadda saxlayır və dönə-dönə, həvəslə nəql edirlər. Bu janr içərisində isə uşaqlar üçün daha maraqlı olan alleqorik nağıllardır. "Alleqorik nağıllar böyük ustalıqla yaradılan nümunələrdir. Bunlarda uşaqların yaş xüsusiyyətləri, psixologiyası, maraq dairəsi çox məharətlə nəzərə alınmışdır. Alleqorik nağılların əsas iştirakçıları olan əşyalar və xüsusilə heyvanlar insan kimi danışdırılır, insanlara xas olan xasiyyətlər onların üzərinə köçürülür. Bu tip nağıllar konkret və lakonik olur, hadisələr aydın və yığcam təsvir olunur, uzun uzadı epizodlara, sehrli macəralara yer verilmir"(1, 220). Bu qəbilədən olan, 1-ci sinif Azərbaycan dili dərsliyində verilmiş "Ayı və Kəndli" nağılına nəzər salaq.

"AYI VƏ KƏNDLİ

(Rus xalq nağılı)

Kəndli həyətini belləyirdi. Torpağı əkinə hazırlayırdı. Ayı ona yaxınlaşdı:

— Gəl şərik olaq.

— Olaq, — deyə kəndli razılaşdı. — Bəs əkdiyim məhsulu necə böləcəyik?

— Çox sadə. Üstü mənim olar, kökü sənin.

Kəndli razılaşdı və sahəsinə kartof əkdi.

Məhsul yetişəndə ayıya dedi:

— Kartof çox yaxşı yetişib. Yarpaqları böyük və yamyaşıldır. Sən onları yığ, mən də torpağın altındakı kartofları.

Ayı kəndlinin sahəsindən əliboş getdiyinə görə çox əsəbiləşdi.

Növbəti il ayı ağıllı tərpəndi.

— Bu dəfə əkəcəyimiz bitkinin kökü mənim, üstü sənin olsun, — dedi.

Kəndli sahəsinə buğda əkdi. Məhsul yetişəndə yenə ayını çağırdı. Ayı tarlaya gələndə çox təəccübləndi. Çünki kəndli sünbülləri özünə götürüb köklərini ayıya saxlamışdı.

Bununla da kəndli və ayının dostluğu pozuldu" (5, 120).

Kurikulum qaydalarına əsasən bu nağıl şagirdlərdə məntiqi, tənqidi, yaradıcı təfəkkürün formalaşmasına, ətraf aləm haqqında təsəvvürlərin genişlənməsinə, əməyə məhəbbət hissinin tərbiyəsinə yardımçı olur. Mətndə insan ağıllı, əməksevər, ayı isə heç bir iş görmədən hazıra nazir olan bir tənbəl kimi göstərilir. Beləliklə, şagirdlərimiz mətni oxuyarkən dərk edirlər ki, insan ağlı və zəhməti ilə bütün çətinliklərin öhdəsindən gələrək istədiklərinə nail ola bilər. Tənbəl, bütün gününü yatmaqla keçirən, heç bir iş görməyən birisi isə, təbii ki, uğur əldə edə bilməyəcək. Bunlarla yanaşı, şagirdlərimiz tərəvəzlər, dənli bitkilər, növbəli əkin prosesləri və s. vacib həyati məsələləri haqqında məlumatlar əldə edərək onların oxşar və fərqli cəhətlərini müəyyən edərək müqayisə etmək, fərqləndirmək kimi bacarıqlara yiyələnirlər.

Nağıl nümunəsi şagirdin tənqidi və məntiqi təfəkkürünün inkişaf etdirilməsinə də yardımçı olur. Belə ki, şagirdə insan və ayının əməllərindəki doğru və yanlış cəhətləri tapmaq, müqayisələr aparmaq üzrə tapşırıqlar verilməklə onlarda tənqidi təfəkkürün inkişafına nail olmaq olar. Eyni zamanda kəndli burada mənqiti cəhətdən düşüncəli, uzaqgörən, işini planlaşdıran, öz məntiqi ilə ayını məğlub edən qəhrəmana çevrilə bilər. Bu da şagird üçün nümunədir. Həmin nüumunə şagirddə ağıllılığa, dərrakəliliyə hörmət hissini formalaşdıra bilər.

4-cü sinif "Azərbaycan dili" dərsliyində "Şah Abbas və vəzirləri" rəvayəti verilmişdir (6, 135). Burada Şah Abbasın gəzinti zamanı vəzirlərini yoxlamaq məqsədi ilə onlarla ayrı-ayrılıqda apardığı dialoqdan, vəzirlərin bir-birinə olan sevgi və hörmət hissindən, onların elmləri qədər də ürəklərinin böyük olmağından bəhs edilir.

Bu mətn dostluğu, qardaşlığı, mehribanlığı, sədaqəti, xeyirxahlığı tərənnüm edir. Sadaladığımız bu gözəl keyfiyyətlər şagirdlərdə əxlaqi zövqün formalaşmasına kömək edir.

Çəkdiyimiz nümunələrdən də aydın olur ki, ibtidai siniflərdə folklor materiallarının tədrisi əsasən aşağıdakı keyfiyyət və bacarıqların yaranmasına və möhkəmlənməsinə xidmət edir:

1. Milli dəyərlərə hörmət
2. Vətənpərvərlik hissi
3. Ümumbəşəri dəyərlər
4. Dostluq hissi
5. Sədaqət
6. Məntiqi təfəkkürün inkişafı – tapmaca
7. Tənqidi təfəkkürün inkişafı – nağıl, rəvayət
8. Yaradıcı təfəkkürün inkişafı - əfsanə, nağıl
9. Düzgün danışıq (nitqin inkişafı) – yanıltmac və s.

Beləliklə, folklor materialları kompleks şəkildə pedaqoji prosesin tərkib hissəsi olub,

şəxsiyyətin formalaşmasında əvəzolunmaz rola malikdir. Burada müəllimlərin də üzərinə böyük iş düşür. Hər bir peşəkar müəllim yeni təlim nəzəriyyələrindən, qabaqcıl pedaqoji təcrübələrdən, həvəsləndirici metodlardan istifadə edərək şagirdlərdə lazımı bilik, bacarıq və vərdişləri formalaşdırmağı qarşısına məqsəd qoymalı və buna maksimum dərəcədə nail olmalıdır. Örnək olaraq Şamaxı şəhər 2 №-li tam orta məktəbin müəllimi Tünzalə Bağırovanın "Torpağın nağılı" mövzusunda apardığı dərsin gedişinə nəzər sala bilərik. Müəllim dərsə suallar əsasında başlayır: "Hər bir sualın cavabında şagirdlərimə "minnətdaram", "təşəkkür edirəm", "çox sağ ol" kimi sözlər deməklə həvəsləndirirəm. Daha dolğun, dəqiq cavab verənləri isə alqışlayırıq.

M: Uşaqlar, sizin üçün ən əziz olan kimdir?

Ş: Ana.

M: Daha sonra?

Ş: Vətən.

M: Vətən dedikdə nə başa düşürsünüz?

Ş: Vətən dedikdə ana torpaq başa düşürük.

M: Bəs nə üçün məhz torpaq?

Ş: Çünki vətən və torpaq anlayışı bir-biri ilə yaxın məna kəsb edir.

Digər şagird isə belə cavab verir:

Ş: Canlıların yaşaması üçün ən vacib amillərdən biri də torpaqdır" (4,86). Daha sonra müəllim mövzunun adını səsləndirir, mətn oxunur, təhlil olunur, şagirdlərə mətndən suallar verilir. Müəllim tərəfindən bu formada aparılan dərsdə həm bütün şagirdlər iştirak edir, suallara cavab axtarmaqla təfəkkürləri inkişaf etdirilir, vətənə, torpağa, anaya sevgi hissi aşılanır, həm də torpağın əhəmiyyətindən, nağılda deyildiyi kimi, alaq otlardan təmizlənmiş olarsa, torpaqdan bol məhsul götürülməsi haqqında bilgilər verilir.

Beləliklə, müəllimlər dərsliklərə salınmış və əlavə folklor nümunələrindən istifadə etməklə şagirdləri düzgün istiqamətləndirməyi bacarmalı, məqsədyönlü və düzgün tapşırıqlarla dövlət standartlarını reallaşdırmalıdır.

**Məqalənin aktuallığı.** Şagirdlərin şəxsiyyəti kimi formalaşmasında tədris materiallarının əhəmiyyəti böyükdür. Bu mənada ibtidai siniflərdə şifahi xalq ədəbiyyatı, o cümlədən folklor nümunələrinin tədrisi mühüm rol oynayır. Məqalə də bu mövzuya həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, XIX-XX əsr Azərbaycan maarifçilərinin ilk milli şagird-uşaq dərsliklərini yaradarkən xalq ədəbiyyatına müraciət etdikləri nümunələr də verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan şifahi xalq ədəbiyyatı. Ali məktəb üçün dərslik, Bakı: "Maarif" nəşriyyatı, 1992, 447 səh.
2. Rus uşaq ədəbiyyatı (Birinci kitab). Bakı: "Öndər nəşriyyatı", 2005, 328 səh.
3. Əhməd V. M Azərbaycan uşaq ədəbiyyatı. Dərs vəsaiti. Bakı: "Müəllim", 199, 338 səh.
4. "Kurikulum". Elmi-metodik jurnal, cild 9, №2 (34), 2016.
5. 1-ci sinif "Azərbaycan dili" dərsliyi. Bakı: "Altun Kitab", 2018.
6. 4-cü sinif "Azərbaycan dili" dərsliyi. Bakı: "Altun Kitab", 2018.

7. Ramazan Qafarlı. Uşaq folklorunun janr sistemi və poetikası, Bakı: “Elm və təhsil”, 2013, 540 səh.

**С. Асадова**

## Важность преподавания фольклорных материалов в начальных классах

## Резюме

В статье рассматривается формировании положительных этических качеств и необходимых умений школьников при использовании устных фольклорных образцов в начальных классах.

**S. Asadova**

## Importance of teaching folklore materials in primary classes

## Summary

There is mentioned in the article about forming positive ethical qualities and necessary skills at students by using verbal folk literature examples in the primary classes.

**Redaksiyaya daxil olub:** 17.05.2019